# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm**
**"Biznes və logistika" kafedrasının**
**müdiri: dos. Əliyev M.Ə.**
**09 sentyabr 2025-2026-cı tədris ili**

**Əməliyyatların idarə edilməsi**
fənni üzrə

**İŞÇİ TƏDRİS PROQRAMI** (Sillabus)

## I Fənn haqqında məlumat

Fənnin kodu: **00305**
Fənnin növü: **məcburi**
Tədris ili: **2025-2026**
Qruplar: **62, 64, 66, 70.**
Fənnin tədris semestri: **payız**
Fakültə: **Biznes və Menecment**
Tədris yükü: **15 saat (mühazirə/məşğələ-15/15)**
Fənnin krediti: **4 kredit**
Fənnin tədris forması: **əyani**

## IIMüəllim haqqında məlumat


**Fənni tədris edən müəllim** **baş/müəl. Məmmədova Dilfara**

**Email ünvanı** **Dilfara_Mammadova@unec.edu.az**
**İş telefonu** **012 440 33 67**
**Tələbələr üçün qəbul vaxtları** **bazar ertəsi 14:00-16:00**


## III Tələb olunan dərsliklər və dərs vəsaitləri

**Ədəbiyyat siyahısı:**


1. Peter Drucker on the Profession of Management (Harvard Business Review Book)
2. М.С.Письменная «Операционный менеджмент». Кировоград 2014
3. A life cycle model of major innovations in operations management, Attila Chikán & Linda G. Sprague , Springer 2019
4. A.D.Hüseynova. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: "Elm və təhsil", 2013
5. These lecture notes were taken during 2013 installment of the MOOC "An Introduction to Operations Management" taught by Prof. Dr. Christian Terwiesch of the Wharton Business School of the University of Pennsylvania at Coursera.org.
6. А. Стерлигова, А. Фель. «Операционный (производственный) менеджмент»


Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron kabinetə yerləşdirilir.Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

## **IV Fənnin təsviri**

Əməliyyatların idarə edilməsi təşkilat daxilində mümkün olan ən yüksək səviyyəli səmərəliliyi yaratmaq üçün biznes təcrübələrinin idarə edilməsi proseslərini ehtiva edir. Bu proseslər təşkilatın mənfəətini maksimum dərəcədə artırmaq üçün resursların və əməyin mümkün qədər səmərəli şəkildə mal və xidmətlərə çevrilməsi, əməliyyat mənfəətinə nail olmaq üçün xərclərin gəlirlə balanslaşdırması ilə əlaqədardır.

Əməliyyatların idarə edilməsi müxtəlif strateji məsələləri, o cümlədən əməliyyatların idarəedilməsi üzrə mütəxəssis yerli və qlobal tendensiyaları, müştəri tələbini və istehsal üçün mövcud resursların, işçi qüvvəsinin vaxtında, sərfəli şəkildə istifadə olunması qaydalarını əhatə edir.

## **V Kursun məqsədi və vəzifələri**

Məlumdur ki, müasir idarəetmənin əsas tələbatı və onun səmərəliliyinin əsas amili yüksək peşakarlıqdır. Bu peşəkarlıq isə mütəxəssisin hazırlıq səviyyəsindən, gələcəyi görə bilmək qabiliyyətindən, baş verə biləcək hadisələri vaxtında hiss edərək problemləri müvəffəqiyyətlə həll edə bilmək bacarığından asılıdır. Məhz bu səbəbdən də müasir mərhələdə, peşəkarların hazırlanması prosesində xüsusi bir fənnin, "Əməliyyatların idarə edilməsi" fənninin tədris edilməsinə ehtiyac yaranmışdır. Əməliyyatların idarə edilməsi fənninin tədrisinin başlıca məqsədi tələbələrdə əməliyyatların idarə olunması təfəkkürünü formalaşdırmaq, inkişaf etdirməkdir, müəssisədə əməliyyatların düzgün idarə edilməsi sahəsində bilik verməkdir.

## **VI.Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması,komanda şəklində layihələrin icrası, quiz'lərin, debatların keçirilməsi, işgüzar oyunlar, xüsusi nümunələrin (case-study) öyrənilməsi, sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir. Dərsdə keçiriləcək mövzular bir-birləri ilə əlaqəli olduğundan, tələbələrin işlənmiş mövzuları yenidən təkrar etməsi məqsədə uyğundur. Müəllimin təmin etdiyi təqdimat, mühazirə, kitab və ya test əsasındatələbələrfənn üzrə təhsilini təkmilləşdirir, yeni biliklərə sahib olur. Dərsi yaxşı izləməklə birlikdə, dərs xaricində də, tələbələrin əlaqəli mövzuları öz aralarında müzakirə etməsi ən effektiv üsullardanbiridir. İstər keçmiş mövzular üzərində çalışarkən, istərsə də gələcək mövzuları hazırlayarkən, tələbələr ehtiyac duya biləcəyi əlavə məlumatları, əlaqədar internet ünvanlarını (beynəlxalq və yerli media mənbələri) həm dərsi tədris edən müəllimin köməyi ilə, həm də müstəqil təhlil şəklində əldə edə bilər. Həmçinin tələbələrə xarici və yerli ədəbiyyatda,kitablarda və / və ya iqtisadiyyat jurnallarında yer alan iqtisadi yenilikləri izləmələri tövsiyə edilməkdədir.

## **VII.Kursun nəticələri**

**Kurs sonunda tələbələr bilməlidir:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələrbacarmalıdır:

✓Müxtəlif təşkilati kontekstlərdə əməliyyat menecerlərinin rol və məsuliyyətlərini müəyyənetməyi;
✓ Müəssisədə işin təşkili,nəzarət, monitoriq və əsas biznes funkisyalarının yerinə yetirilməsini;
✓Davamlı olaraq prosləri inkişaf etdirməyi;
✓Təşkilatın strateji planının icrasını;
✓Mütəşəkkil, analitik, yaradıcı, çoxyönlü və lider bacarıqlarını formalaşdırıb tətbiq etməyi;
✓Şirkətin rəqabət qabiliyyətinə təsir edən çoxsaylı qərarların qəbul edilməsi yollarını.

## **VIII.Prerekvizitlər:**

Bu fənn müstəqil olduğu üçün fənnin tədrisindən öncədən və sonra tədris olunacaq fənnlərbir-birini təkrarlamır və üst-üstə düşmür.

## **IX.Fənni mühazirə mövzuları:**

1. Əməliyyat idarəetməsinin əsas məzmunu və onun alt sistemləri
2. İnnovativ inkişafın şərtləri və Piter Drukerin təhlilləri
3. Əməliyyat ehtiyatlarının idarə edilməsinə əsas yanaşmalar
4. Planlaşdırma prosesi, icrasının təşkili və əməliyyat nəzarəti
5. Əməliyyatların idarəedilməsində Kaizen Təkmilləşdirmə Sistemi
6. Korporativ strategiyalar və əməliyyat strategiyasının formalaşdırılması
7. Biznes proseslərin modelləşdirilməsi və məhdudiyyətlər nəzətiyyəsinin tətbiqi
8. Ümumi Keyfiyyət İdarəetmə konsepsiyası və İSO 9000 standartları və proseduruntəkmilləşdirilməsi modeli

## X.Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtualuniversitet" bölməsində yerləşdirlir.

## XI.Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| s/s | Mövzuların adı | Mövzunun əsas məzmunu | Saat | Mühazirə tarixi |
|---|---|---|---|---|
| 1 | **Əməliyyat idarəetməsinin əsas məzmunu və onun alt sistemləri** | Əməliyyatların menecmenti təşkilatın istehsalını və ya xidmətlərini planlaşdıran və idarə edən mühərrik mexanizm kimi. Əməliyyatların idarə edilməsi miqyasında işin təşkili,nəzarət, monitoriq və əsas biznes funkisyalarının yerinə yetirilməsi prosesləri. | 1 | |
| 2 | İnnovativ inkişafın şərtləri və PiterDrukerin təhlilləri | Biznesin xarakterik xüsusiyyətləri. Böyük ideyaların yaranması. Əməliyyatların idarə olunmasında innovativ yanaşmanın həyat dövrü. Əməliyyat innovasiyasının bəzi nümunələri. Əməliyyatların müştəri üçün səmərəli idarə olunmasında əsas ölçülər. İnnovativ milli biznesin formalaşması və inkişafı. Əməliyyatların idarə olunmasında güzəştlər və Effektivlik Sərhədi. Biznesdə idarəetmə ilə bağlı Piter Drukerin müəyyən fikirləri | 1 | |
| 3 | **Əməliyyat ehtiyatlarının idarə edilməsinə əsas yanaşmalar** | Ehtiyatların idarə edilməsi. Evristik; texniki-iqtisadi hesablamaların aparılması; iqtisadi və riyazi metodlar. Əməliyyatların idarə edilməsində performans göstəriciləri. Əməliyyatların idarə olunmasında terminlər: utilizasiya, axın norması, tələb, proses tutumu və s. Məhsuldarlıq, onun mahiyyəti, formaları və ölçülməsi üsulları | 1 | |

| | | | | |
|---|---|---|---|---|
| **4** | **Planlaşdırma prosesi, icrasının təşkili və əməliyyat nəzarəti** | İstehsalın idarə edilməsi. Əmək ehtiyatlarından, resurslardan, bütün istehsal potensialından səmərəli istifadə. Müəssisənin operativ idarəetmə sistemindəki elementlər. Planlaşdırma, təşkiletmə, uçot, nəzarət, təhlil və tənzimləmə. İstehsalatda durğunluq zamanı. İstehsalatda məhsuldarlıq və intensivlik arasındaki əlaqə və fərq. İşçi qüvvəsinin birbaşa utilizasiyası. Əmək xərcləri (labor cost). | **1** | |
| **5** | **Əməliyyatların idarəedilməsində Kaizen Təkmilləşdirmə Sistemi** | Kaizen Təkmilləşdirmə Sistemi. Z nəzəriyyəsi. Gemba kaizen. Xərclərin azaldılması və keyfiyyətin yaxşılaşdırılması yolu. 5S sistemi. İşçilərin istehsal fəaliyyətində iştirak etmə göstəriciləri. | **1** | |
| **6** | **Korporativ strategiyalar və əməliyyat strategiyasının formalaşdırılması** | Strategiya anlayışı və strateji idarəetmənin mahiyyəti. Strateji planlaşdırmanın mərhələləri. Müəssisə strategiyasının növləri. Rəqabət qüvvələrinin qiymətləndirilməsi. SWOT təhlil. Strateji idarəetmədə əsas terminlər | **1** | |
| **7** | **Biznes proseslərin modelləşdirilməsi və məhdudiyyətlər nəzətiyyəsinin tətbiqi** | | **1** | |
| **8** | **Ümumi Keyfiyyət İdarəetmə konsepsiyası və İSO 9000 standartları və prosedurun təkmilləşdirilməsi modeli** | | **1** | |
| | **Yekun:** | | **15** | **15** |
| | | **Final imtahanı** | | |

## V Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etrnəyi,habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlətanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktikbacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda semestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## VI Fənn üzrə kurs işi və sərbəst iş

Fənn üzrə kurs işi və sərbəst iş nəzərdə tutulmayıb.

## VII Aralıq qiymətləndirmə

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəalığı (mühazirədəki fəallıq, seminar- məşğələ cavabları, qrup işlərində iştiraki və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

## XV Yekun imtahan

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur. Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal) qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVI Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır vəyekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 30 | 30 % |
| Tələbələrin sərbəst işinə görə | 10 | 10% |
| Davamiyyət | 10 | 10 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahanaqədərvə imtahanda) tələbənintopladığıbalınyekunmiqdarınagörə onunyekunbiliyiaşağıdakıkimiqiymətləndirilir:

51 baldanaşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri- kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **baş/müəl. D.F.Məmmədov**